*Ə.Ələkbərova. Nəcəf bəy Vəzirov və Mirzə Ələkbər Sabir ideyaları müasir dövr çağırışları konteksində // Əlyazmalar yanmır, 2023, №1 (16), s. 64-71.*

UOT: 82-1.512.162.

**Əzizə Ələkbərova**
*AMEA M. Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı ş., İstiqlaliyyət küç. 26*
*e-mail: aalekberli@mail.ru*

# NƏCƏF BƏY VƏZİROV VƏ MİRZƏ ƏLƏKBƏR SABİR İDEYALARI MÜASİR DÖVR ÇAĞIRIŞLARI KONTEKSİNDƏ

**Xülasə**

Nəcəf bəy Vəzirov və Mirzə Ələkbər Sabir yaradıcılığı yalnız yaşadıqları dövrdə deyil, bu gün də aktualdır. Belə ki, XIX əsrdə olduğu kimi zamanımızda da dünyanın öndə gedən ölkələrində elm və təhsil sahəsində əldə olunan nailiyyətlərin, yeni texnologiyaların tətbiqinə qarşı çıxan cahil insanlar var. Nəzərə alsaq ki, Azərbaycan reallığında mədəniyyət elmi əksər hallarda ötüb, o zaman şeir, teatrı və s. kimi bədii yaradıcılıq vasitələrdən istifadə ilə elm və təhsilin müasir nailiyyətlərini təbliğ edə bilərik. Abbas Zamanov "Xalqın vüqarı" adlı məqaləsində yazır: "*...yarandığı ilk illərdə Azərbaycan teatrı dahi Mirzə Fətəlinin dramaturgiyasından doğan körpə uşağa bənzəyirdi. Həsən bəy Zərdabi, Nəcəf bəy Vəzirov, Əsgərağa Gorani və başqa teatr həvəskarları bu körpənin beşiyi başında dayanıb, onu ana nəvazişi ilə böyütdülər, imakləməyi, sonra da ayağa durub yeriməyi öyrətdilər, xeyir-dua verib müstəqil həyata buraxdılar.*

*...Azərbaycan teatrı bütün bu illərdə və daha sonralar milləti geriyə çəkən cəhalət və mövhumata, orta əsr əlaqələrinə qarşı, xalqın maddi, mədəni və mənəvi inkişafına mane olan köhnə cəmiyyətə qarşı mübarizənin qüvvətli tribunasına çevrildi*" (1, s.276-277).

Seyid Hüseyn isə yazırdı: "*Sabirin hansı mənzuməsini alırsınız alınız, o, sizin üçün tarixi bir sənəddir. O elə bir sənəddir ki, 1906-1911-ci illərdəki xalqımızın əhvali-ruhiyyəsi, ictimai həyatı, düşüncəsi tamamilə onda nəzərimizə çarpacaqdır. Sabir şairliyi, sənətkarlığı xalqın intibahı uğrunda çalışmaqdan, onu qəflət yuxusundan ayıltmaqdan ibarət bilmişdir*" (8, s.5).

M.Ə.Sabir, H.Zərdabi, N.Vəzirov kimi maarifpərvər ziyalılarımızın zamanında qiymətli əsərləri vasitəsilə təbliğ etdiyi ali ideallar təssüf ki, hələ də bəzi cahil şəxslər tərəfindən düzgün dərk olunmur. Hələ də dini fanatizm, valideyinlərin övladlarını erkən nigaha təhrik etməsi, əyyaşlıq və narkomaniya, təhsildən yayınmalar kimi ictimai bəlalar müasir cəmiyyətimizin də əsas problemləri olaraq qalır. Bu naqisliklərlə mübarizə üçün cəmiyyətin maarifləndirilməsində mətbuatın, bədii ədəbiyyatın, teatrın rolu öz əhəmiyyətini qoruyur. Ona görə də biz XX əsrin əvvəllərində yaranan ədəbiyyatımızı, publisistikamızı, dram-teatr sənətimizi dərindən öyrənməli, bu qiymətli mirasın bizə təlqin etdiyi dürüstlüyü yeni nəslə müasir texniki tərəqqinin yaratdığı imkanlardan faydalanaraq ötürməliyik.

***Açar sözlər:*** *Nəcəf bəy, Sabir, məqalə, teatr, dövr, Şuşa, üsyan, azərbaycanlı, erməni, Mir Möhsün Nəvvab, əsər*

## Giriş

*1873-cü ildə 19 yaşlı Nəcəf bəyin ideyası Həsən bəy Məlikovun dəstəyi ilə yaradılan teatrdan fərqli olaraq müasir teatrlar heç bir sosial mesajı təsirli şəkildə vermir. Müasir teatrlar onlar üçün narahatçılıq yaratmayacaq təmizliyin əhəmiyyəti, yaşlılara, qadınlara hörmət etmək, cinsi tərbiyə, pis vərdişlərin zərəri kimi ictimai mövzuları teatrlaşdırıb nümayiş etdirsələr xeyli insanın doğru istiqamətlənməsinə əhəmiyyətli təsir göstərər.*

*Ailəsinin dolanışıq vəziyyətinə görə məktəbə on iki yaşından başlayan, on dörd yaşında Şuşadakı təhsilə qane olmayıb Bakıya gəlib Realnı gimnaziyaya daxil olan, qabiliyyəti, savadıyla müəllimlərinin rəğbətini qazanan, gənc yaşında Azərbaycan dilində teatrın əhəmiyyətini anlayıb müəllimi Həsən bəy Məlikovun köməkliyi ilə Azərbaycan teatrının əsasını qoyan, sonra teatr üçün əsərlər yaradan Nəcəf bəyin fəaliyyətini müasir dövrümüzdəki dramaturqların və ya mətbuat işçilərinin fəaliyyəti ilə müqayisə etdikdə təəssüflə qeyd etməliyik ki, indiki yaradıcı şəxslərə vəzifə və maddi yüksəlişdən özgə insanların problemləri, cəmiyyətdəki hadisələr maraqlı deyil. Halbuki Nəcəf bəy Vəzirov XIX əsrin sonu XX əsrin əvvəllərində daha geniş kütləni savadlandırmaq məqsədi ilə teatr tamaşaları təşkil edir, dram əsərləri, məqalələr yazır, Sabir də həmçinin insanlar qüsurları görüb düşünsün deyə daha çox satirik əsərlər yaradırdı. İndi Sabir, Nəcəf kimi yaradıcı yazıçı, şair, jurnalist, ziyalı yoxdur.*

Nəcəf bəy Vəzirov Mirzə Ələkbər Sabirdən 8 yaş böyük olub. Nəcəf bəy yaradıcılığa 1875-ci ildə "Ev tərbiyəsinin bir şəkli" komediyası ilə 21 yaşında başlamışdır. Abbas Zamanov "Əməl dostları" kitabında "Səhhət və Sabir" bölməsində yazır: "*Dostu və müasiri Mirzə Ələkbər Sabir kimi Səhhət də yaradıcılığa XIX əsrin sonlarında başlamışdır. Lakin Sabir də, Səhhət də ilk əsərləri ilə ədəbiyyat tarixində yaşayacaq iz buraxa bilməmişdilər. Onların ikisinin də əsl bədii yaradıcılığı 1905-ci ildən sonra başlamışdır*" (1, s.30). Yaxud filologiya elmlər doktoru Məmməd Məmmədovun tərtib etdiyi "Hophopnamə" adlı iki cildlik kitabın birinci cildində müəllif yazır: "*M.Ə.Sabirin zəngin ədəbi-bədii irsi əsasən 1903-1911-ci illərdə qəzet, jurnal, məcmuə və dərsliklərdə çap olunmuşdu. Əsərlərini satirik mətbuatda müxtəlif gizli imzalarla çap etdirməsinə, öz müəllifliyini gizləməsinə baxmayaraq, hələ şairin sağlığında onun şeirləri böyük şöhrət qazanmış, dillər əzbəri olmuşdur*" (3, s.4). Sabirlə Vəzirovun yaş fərqinin az olmasına baxmayaraq Sabir yaradıcılığa başlayanda artıq Vəzirov yaradıcılığı, fəaliyyəti ilə bir çox mühüm sahələrə öz töhfəsini vermişdir. Vəzirov yaradıcılığı barədə yazan ədibin müasirlərindən biri də Mirzə Ələkbər Sabir olmuşdur.

Sabirin 1906-cı il 6 avqustda "Həyat" qəzetinin №173-cü sayında "M.Ə.S." imzası ilə çap etdirdiyi "Qarabağda Davası Qət'i xüsusunda" adlı məqaləsində yazır: "*Şamaxı tüccari-mö'təbəranından neçə nəfər zati giram Qarabağda məcruh və xəsarətdidə olan müsəlman qardaşlarımızın xeyirlərinə ianə dəftəri açıblar, bəqədr beş yüz manat həlalikdə cəm olub və yenə olmaqdadır.*

*Və yenə həmin xüsusda şəhərimizin qəyrətli və rəhmdil cavanları Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasın hökumət izni ilə avqust ayının üçündə Salamovaların evində oynayacaqlar. Millət pişrəfti üçün çeşmdaştımız olan ziyalı cavanlarımızın əmsalın dəxi ziyadəsi ilə görməkdə gözlərimizin işıqlanmasın dərgahi-əhədiyyətdən ən səmimül-qəlb rica və təmənna ediriz.*

*Bəli, Şamaxı əhli öz millətі-nəcibeyi-islamiyyələrinə qarşı ürəklərində bəslədikləri məhəbbəti-qeyrətməndanələri təhəyyücündən Qarabağ facieyi-müəssifəsindən xəsarətlərə düçar olan sevgili qardaşlarını düşmənlərin zalimanə və birəhmanə sui-qəsdlərindən müdafiəyə müqtədir olmadıqlarından yaralanmış ürəklərinə mərhəm olaraq bir yanda ianə dəftəri açmaqla və bir tərəfdə teatr məclisi bərpa etməklə bərgi-səbz mənzələsində olan hədiyyeyi-mühəqqəranələr cəm etməkdə olmaqla təsəlliyab ola bilirlər isə də, amma qaloşçapovların məxsusən müsəlmanlara etdiyi yaddançıxmaz olan birəhmanə və xanimansuzanə hərəkətindən ancaq dərgahi-*

*əhadiyyətə şaki olub, dövlətin ədalət qanununa ona cəza verilməsinə ümidvar olmaqla təsəlliyab ola bilirlər*" (2, №173).

Vəzirovun təşəbbüsü ilə yaranan anadilli teatrımız daha geniş kütlənin bədii-estetik zövqü ilə yanaşı mənəvi-əxlaqi təsiri ilə kütlə arasında birliyin, yardımlaşmanı formalaşdırmışdır. XIX əsrdə əgər Həsən bəyin tələbəni xalq hesabına oxutmaq təşəbbüsü nəticə vermədisə, qısa müddət sonra, yəni XX əsrin əvvəllərində artıq Axundov və Vəzirovun əsərlərinin tamaşaya qoyulması xeyli əhalinin düşüncəsinin dəyişməsinə səbəb olmuşdur. Vəzirovun dram tamaşaları yalnız dinləyicilərin bədii, estetik zövqlərinə təsir etmir, həmçinin fərdlərdən ibarət tamaşaçıları informasiya ilə təmin edir, onlara qüsurları, yanlışlıqları göstərərək doğru tərbiyələndirir.

1905-ci ildə rus-yapon müharibəsinin olmasını fürsət bilən ermənilər Azərbaycanın bütün bölgələri kimi Şuşada da müsəlman və erməni münaqişəsi yaratmağa çalışırdılar. Onlar səngərlər qazmaqla yanaşı hiyləgərlik işlədib bazarda 20 manata satılan tüfəngi 100 manata, 6 manata olan tapançanı 30 manata almağı təklif edəndə müsəlmanlar da hiyləgərliyi başa düşməyib bütün silahlarını satdılar. Müsəlmanlara xəbərdarlıq edildikdən sonra onlar yenidən daha baha qiymətə silah alıb ərzaq tədarükü gördülər. Ermənilər nifaq salmaq üçün ilk öncələr əsassız xəbərlər yayıb, müsəlmanları tək-tək öldürməyə başladılar. 1905-ci ilin avqustunda Şuşa şəhərində otuz il ərzində müxtəlif yerlərdə gizlətdikləri silahlarla yaşlı-uşaq demədən hər kəsi güllələdilər, evləri yandırdılar. Tarixçi, nəqqaş Mir Möhsün Nəvvab "1905-1906-cı illərdə erməni-müsəlman davası" əsərində yazır: "*Davadan əvvəl Şuşanın erməni tayfası hər yerə kağızlar yazıb göndərərək kömək istəmişdilər. Həmin kağızların birini də Tiflis şəhərinə yazıblarmış. Tiflisdə neçə yüz erməni və gürcü gəlib Şuşada müsəlmanlarla vuruşmuş və əksəriyyəti burada həlak olmuşdular*" (6, s.38-39).

Qarabağda törədilən qırğınlar zamanı rus dövləti bitərəf mövqey tutub, yerli əhaliyə qarşı atəş açırdılar. Rusların əsl məqsədi isə erməni-müsəlmanlar arasında dava salıb onları kasıblatmaq, kasıb olduqda isə hər iki millətin məişət qayğıları ilə məşğul olaraq dövlətə qarşı çıxmağının qarşısını almaq idi. General Qalaşakov şəxsən hər iki səngərdəki topçulara baş çəkərək onların atəşlərinə düzəliş verirdi. Müsəlmanlar Qalaşakovun dövlətə və millətə xəyanəti haqqında hakimiyyətə teleqraf vururdular. Rusiya dövlətinin gizli tələbini yerinə yetirən Qalaşakovun yeganə "cəzası" qala hakimliyindən çıxarılması oldu. Hər iki tərəfdən xeyli insanın ölümü, şəhərin xarabalığa çevrilməsində Qalaşakovun hiylələri böyük rol oynadığından o tələsik Tiflisə getdi. Həmin ilin noyabrın 1-də naməlum qatil iki güllə ilə Qalaşakovu öldürdü.

Darmadağın olmuş və əhalisinin qidasının tükəndiyi bölgəyə başqa bölgələrdən yardımlar gəlirdi. Bu yardımların çoxu Axundovun və Vəzirovun əsərlərinin səhnələşdirilməsindən yığılan ianələr hesabına olurdu. Yanvarın 22-də Bakıda "Артистически клуб" Qarabağda zərərçəkənlərə kömək məqsədilə Vəzirovun " Yağışdan çıxdıq, yağmura düşdük" dramını tamaşaya qoydular.

Sabirin "Hophopnamə" kitabının izah hissəsində "Elmə tərğib" ("Elmin izzəti payidar olur") adlı şeirinin izahında qeyd edilir: "*İlk dəfə "Tazə həyat" qəzetində (31 avqust 1907, №109) Şamaxıdan yazılmış bir müxbir məktubunun içərisində çap olunmuşdur. Yalnız üçüncü və beşinci nəşrlərə daxil edilmişdir.*

*Şeirin yazılma tarixçəsini və Sabirin Şamaxıdakı teatr tamaşaları ilə əlaqəsini aydınlaşdırmaq üçün əhəmiyyətli olan "Teatr nədir?" adlı həmin müxbir məktubunu aşağıda eyni ilə veririk:*

*"Ədibi-məşhur, şairi-mə'ruf Kamal Namiq həzrətləri demiş ki, teatr bir ayineyi-geytinümadır ki, orada hər kəs öz eybini görür.*

*Bəli, teatr bir ayineyi-ibrət, bir binayi-xeyir, bir məhəlli-təyəqqüz olduğunu hamı təsdiq ediyor. Qafqaz müsəlmanları da təsdiq ediyor. Amma indi, neçə-neçə illərdən bəri tərtib olunmuş komediyalarımız, faciələrimiz, Tiflis, Bakı müstəsna olduğu halda, indi meydana çıxır. Çıxdığı üçündür ki, bu az zaman içində teatr görmüş hər bir kəsdə bir oyanıqlıq, bir hüşyarlıq hiss olunmaqdadır. Daha o zülməti-cəhalət, qəflət aləmləri keçdi. O qara pərdəli mazi çıxıb*

*getdi. İndi gələcəyimizi düşünüb övladi-millətin bəxtiyaranə yaşaması üçün lazımi tədabirə təşəbbüs zamanı gəldi. İndi əsbabi-səadəti dərdəst edib də məktəblərimizi daha islah, teatrlarımızı daha rövnəqli meydanitəmaşaya vəz' etmək vəqti gəldi. Odur ki, ömrümüzdə görmədiyimiz əməli komediyaları, faciələri iki ildən bəri nadirü-vüqu' olaraq üç-dörd dəfə gördük.*

*Cəmaətimizin dəxi mütənəsseh, mütənəbbeh olduqları aşikar hiss olunur.*

*Ələlxüsus həmin avqust ayının 17-sində Salamovların evində yetim uşaqların mənfəəti üçün möhtərəm Nəcəf bəy Vəzirovun "Müsbəti-Fəxrəddin" facieyi-ələmi-iştimalları ziyalı cavanlarımız tərəfindən oynanıldı. Ziyadə ibrətamiz bir faciə olduğunu hər kəs görüb də mütəəssir olduqları bədiheyi mə'lum olurdu.*

*Oynayanlar isə bəhadiranə hər biri öz rolunda böyük bir məharət göstərir idi. Çünki cümləni heyrətə gətirəcək dərəcədə hazır olmuş idilər. Əlavə olaraq hər pərdənin arasında məktəb uşaqları məşhur şair Şirvani Sabir əfəndinin müxtəlif ahəngdə olan mütəəddid təraneyi-milliyyələrini həmavaz olub oxuyurdular. Həqiqətdə o uşaqlar ağzından eşidilən, məarifə, tərəqqiyə, milliyyətə dair olan əbyat cümləni tərənnümeyi-təəşşüqə gətirir idi. Nümunə olmaq üçün bu pür mə'na əş'arın bir qismini yazıram, budur:*

*Elmin izzəti payidar olur.*
*Cəhlin nikbəti canşikar olur*
............................................

*Belə-belə şeylər gördükcə, əlhəmdülillah, cəmaətimizin dəxi teatra rəğbəti getdikcə kəsbi-qüvvət etməkdədir. Daha "teatra gedən kafirdir" qövli-naməşruini fəramuş edib, təriqi-nicatə vasil olmaqdadırlar. Burasına təşəkkür olunar. Təəssüf olunacaq bir eybimiz var isə, o da biletləri aşağı mərtəbədə olanların xilafi-qaidə yuxarı mərtəbədə oturmaları idi. Öylə isə bir söz ziyalı cavanlara, bir söz də əfradi-cəmaətə kəstaxanə ərz edəcəyəm.*

*Səhv edir isəm, bağışlasınlar. Vallah, caygir olmasını təmənna edirəm.*

*Ey ziyalı cavanlar! Bu yolda sə'y və ictihadınızı daha da artırın! Dörd ayda bir olmuyub, ayda, laməhalə, iki ayda bir dəfə meydana çıxmalı! İnqirazə, izmehlalə üz çevirmiş avam cəmaəti ihyadə həzrət İsa olmalı! Qoyun sizi təkfir, təkzib etsinlər, çünki təkzib olunmaq ənbiya sifətidir.*

*Əlkəlamu yəcürrül kəlami, ikinci bir söz daha deyəcəyəm. Bilet qiymətlərin ucuz etməli ki, hər kəs gələ bilib də ibrət alsın. Ümdə mətləb pul olmuyub, bəlkə avam cəmaətin daha da həvəsini artırmaq və teatrlarda nə tövr rəftar etmək qaidəsini öyrətmək olsun. Yaşayın, cavanlar! Yaşayın da, millət adına, vətən adına xidmətdə qüsurluq etməyin!*

*Keçəlim cəmaətə: Ey bə'z əğniyalar, kömək etməkdə təkahül, təkasül edirsiniz, daha etməyin! Çünki naşər' iş görmürsünüz, bəlkə düşmüşlərin əlindən yapışırsınız, atasızları atalı edirsiniz, ölmüşləri dirildirsiniz. Hansı ki, millətin xoşbaxtlığı pişrəfti bir tərəfdən də siz cənablara vabəstədir. Bir tərəfdən deyirəm, xeyr, bəlkə bu əmrin rükni-ə'zəmi olub da təriqi-nicatə vasil olmaq siz ilə qaimdir.*

*Qaldı ki, avam cəmaətlərə deyəcəyim budur ki, oyun vəqtində hər kəs öz yerində oturub, ibrət alsınlar. Burada ermənilərin səliqəli teatrları yadıma düşdü. Xatirələrə kəlal gəlməsin deyə qareini-kiram hüzurinə ərzdən ictinab ediyorum*" (7, s.281-282).

Bu tamaşa haqqında Əməkdar mədəniyyət işçisi, yazıçı, publisist Qulam Məmmədli "Azərbaycan teatrının salnaməsi (1850-1920)" kitabında yazır: "*1907-ci il 17 avqust, Şamaxı. Salamovların evi, ziyalı cavanlar, N.Vəzirov–"Müsibəti-Fəxrəddin". Pərdələr arasında–Sabirin şeirləri oxunmuşdur*" (3, s.145).

Qulam Məmmədli kitabında Qarabağda zərər çəkənlərə kömək məqsədi ilə ayrı bölgələrdə Vəzirovun əsərləri əsasında təşkil edilən tamaşalarda da pərdələrarası fasilərdə Sabirin şeirlərinin oxunmasını yazmışdır.

"Hophopnamə" kitabında tamaşa haqqında geniş məlumat nəticəsində biz tamaşanın nə məqsədlə keçirildiyi, necə keçdiyi haqqında ətraflı məlumat alırıq. "Müsibəti-Fəxrəddin" faciəsi ilə "Elmə tərğib" şeirinin məzmunun müqayisə etdikdə hər iki əsərdə cəmiyyətimizin təsvir etmək, baş verən neqativ hadisələrin səbəblərini aydınlaşdıran faktlar, hadisələrin mənasını ətraf, şərait, mühitdə müəyyənləşməsi və düşdüyümüz nəticələr aydınlaşdırılmışdır:

*İslamiyyətə iftixarımız-*
*Sünni-şiəlik oldu karımız,*
*Getdi şənimiz, etibarımız,*
*Varmı rütbəmiz, iqtidarımız?*
*Oxuyun, əzizlər, oxumaq zəmanıdır!*
*Oxumaq hər adəmin ədəbi nişanıdır!* (7, s.110).

Yaxud Vəzirovun "Müsibəti-Fəxrəddin" dramında da Nəcəf bəy Fəxrəddin obrazı vasitəsi ilə cəmiyyətdəki nöqsanların səbəbini elmsizlikdə olduğunu vurğulayır: "***Fəxrəddin bəy (tək).*** *Rüstəm bəy intiqam almaq istəyir... Neyləmək! Belə vay, ellik ilə gələn vaydır. Rüstəm bəydə günah yoxdur. Elmdə, sənətdə geri qalan millət bizim günümüzə düşər... Bitərbiyət, qanmaz, bihəya, yalançı, oğru, başkəsən, nainsaf, bimürüvvət... Neyləmək gərək?! İşimiz bel düşüb... Ağsaqqal, büzürgüvarımız Rüstəm bəy! Mənim taxsırım nədir ki, məni öldürtmək istəyirsiniz, bitaxsır? Görək bu şəriətimizdə var, Quranımızda var, ya belə işə insaf yol verə bilər?.. (Uzun səktə.) Xudaya, mən ölümdən qorxmuram, qüdrət sənin əlindədir, amma rəva deyil ki, mən bir belə zəhmətdən sonra öz mətləbimə çatmamış, arzularına yetişməmiş cavan, bir gədasifət adamın əlində bitaxsır bada gedəm. Həvəs ilə başladığım işin aqibətin görməyib tələf olam! Mənim canıma qəsd eyləyən şəxs, məgər Allahdan qorxmaz, xəyal eləməz?.. Məgər cavanlıq, nakamlıq zalımın qabağın kəsməz! Məgər Səadətin naləsindən qorxmaz?.. (Fikrə gedir.)* (9, s.30-31).

Teatrın Sabirin yaşadığı dövrlə hazırkı dövrü müqayisə etsək, görərik ki, cahil insanlar yenə çoxdur. 25 avqust 2022-ci ildə "pressklub" saytında "Azərbaycan əhalisi. Son 10 ildə nə dəyişib?" adlı məqalədə qeyd edilir: "*Son 10 ildə ölkə əhalisinin təhsil səviyyəsində də dəyişikliklər gözə çarpır. 2011-ci ildə Azərbaycanda 897 min nəfər ali təhsilli şəxs olub. O vaxt ölkədə 15 yaşı aşan əhalinin 12.9 faizi ali təhsilliydi. Ötən ilin sonuna ölkədə ali təhsilli şəxslərin sayı 1 milyon 107 min nəfərə çatıb. Yəni son 10 ildə ölkədə ali təhsilli şəxslərin sayı 210 min nəfər çoxalıb. Hazırda 15 yaşdan yuxarı əhalinin 14,4 faizi ali təhsillidir*" (11).

Bu statistikaya əsaslanıb demək olmaz ki, 14,4 faiz ali təhsilli insan savadlıdır. 2023-cü ildə biz məktəblər, təhsil barədə axtarış verəndə ölkəmizdəki çox az sayda liseylər istisna olmaqla orta və ali məktəblərdəki şəraitin dünyanın əksəriyyət ölkələrdəki məktəblərdən çox aşağı olmasının şahidi oluruq. Öyrənmək diqqət, fəaliyyət və məşq tələb edir. Tələbələrə interaktiv və cəlbedici mühitdə dərs dedikdə onların dərsə yanaşmaları da dərhal dəyişir. Ənənəvi mühazirə otaqları keçmişdəki kimi tələbələrdən yalnız müəllimi dinləməklə nizam-intizamlı olmaq və verilən tapşırıqları ənənəvi üsulda öyrənmək üçün nəzərdə tutulub. Texnologiyanın inkişafı nəticəsində tələbələr araşdırmaq, tətbiq etməklə öyrənmək, nəticə əldə etmək istəyir. Bizdə isə ali təhsildə demək olar ki, müasir tələblərə cavab verməyən kitablar hələ də öyrənmək üçün yeganə mənbə olduğu üçün ali təhsil diplomuna malik gənclərimiz iş axtardıqları zaman tələblərə cavab verməyən bilik sahibi olduqlarını görürlər. Bəli, bir əsrdən çox öncə bütün fəlakətlərin səbəbini elm, təhsilin olmasından qaynaqlandığını bildirərərk çatışmamazlıqları həm hökümətdən, həm də tam savadsız kütlədən qorxmadan tənqid edən Vəzirovlar, Sabirlər təəssüf ki, indi yoxdur ki, elmdə, təhsildə bu qədər problemləri ictimailləşdirib çarə axtarsın.

**Kamran Məmmədov Vəzirov və Sabir yaradıcılığı haqqında**

Azərbaycan ədəbiyyatının tədqiqində, bir çox ədiblərlə yanaşı Nəcəf bəy Vəzirov və Sabir haqqında bir çox elmi məqalələrin, kitabların nəşrində böyük xidmətləri olmuş, ədiblər haqqında dəqiq və dolğun məlumatlar yazan Kamran Məmmədov Sabirin Vəzirovun əsərləri əsasında teatr tamaşaları təşkilindəki fəaliyyətini də qələmə almışdır. Professor "Nəcəf bəy Vəzirov" kitabının "Vəzirov və teatr" bölməsində yazır: "*Böyük xalq şairimiz M.Ə.Sabirin Vəzirov yaradıcılığına, xüsusən "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasının və "Müsibəti-Fəxrəddin" faciəsinin Şamaxıda yerli həvəskarlar tərəfindən verilən tamaşalarına münasibəti maraqlıdır (Sabirin "Yağışdan çıxdıq, yağmura düşdük" pyesinin tamaşasına münasibəti ilk dəfə filoloji elmlər doktoru, professor M.Məmmədov məlumat vermişdir (Bax: "Şair-vətəndaş" kitabçası, Bakı, 1962, səh 32-35). M.Ə.Sabir teatrı, ümumiyyətlə, xalqın ayılmasında əsas vasitələrdən biri sayır, onu "ayineyi-ibrət" adlandırırdı. Şair yazırdı: "Və genə həmin xüsusda şəhərimizin qeyrətli və rəhmdil cavanları Vəzirovun "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasının hökumət izni ilən avqust ayının üçündə Salamovların evində oynayacaqlar. Millət pişrəfti üçün çeşmdaştımız olan ziyalı cavanlarımızın əmsalın dəxi ziyadəsilə görməkdə gözlərimizin işıqlanmasına dərgahi-əhədiyyətdən ən səmimül qəlbdən rica və təmənna edəriz" (Yenə orada).*

*M.Ə.Sabir ikinci məqaləsini (Yenə orada, 1906, 10 avqust, №177) 1906-cı il avqustun 3-də müəllim Əlicabbar Orucəliyevin rəhbərliyi ilə tamaşaya qoyulan "Yağışdan çıxdıq, yağmura düşdük" komediyasının təhlilinə həsr etmişdir. O, teatr və səhnə sənətini gözəl başa düşən bir mülahizəçi kimi tamaşanın müvəffəqiyyətli və nöqsanlı cəhətlərini göstərirdi. Rollarını yaxşı dərk edən, öz təbii oyunları ilə tamaşaçıları ələ alan müəllimlərdən Cəbrayılbəyovu (Hacı Qəmbər), Məmmədovu (Aşıq Vəli), Ağalar bəy Hüseynbəyovu (Əşrəf bəy), Mustafayevi (nökər Cəbi), Cabbar Hüseynovu (Qıdı kirvə) tərifləyən müəllif tamaşaya yekun vuraraq yazırdı: "Məclisin nəhayət dərəcədə təbii bir halət göstərməyindən tamaşaçılar ziyadə məhzuz olub, alqışlar ilə təhsin etməkdə idilər. Görünir ki, müntəzəm və mürəttib cənabləyən amillərdən bir çoxunun pyesdə realistcəsinə göstərmişlər" (Yenə orada).*

*"Müsibəti-Fəxrəddin" faciəsi Sabirin ən çox sevdiyi əsərlərdən biri idi. Zəhmətkeş xalqı fəlakətə sürükləyən amillərdən biri çoxunun pyesdə realistcəsinə təsviri insanpərvər şairi təsirləndirdiyi üçündür ki, o, faciənin ümumi ruhu, baş qəhrəman Fəxrəddinin arzuları ilə sıx bağlı olan "Elmi tərğib" adlı xüsusi nəğmə də yazır. Həmin nəğmə "Müsibəti-Fəxrəddin" tamaşasında pərdələr arasında oxunarmış: "...Hər pərdənin arasında məktəb uşaqları məşhur Şirvani Sabir əfəndinin müxtəlif ahəngdə olan mütəəddid təraneyi-millətlərinin həmavaz olub oxuyurdular. Həqiqətdə o uşaqlar ağzından eşidilən maarifə, tərəqqiyə, milliyyətə dair olan öbyat tərənnümeyi-təəşşüqə gətirir idi. Nümunə olmaq üçün bu pür məna əşarın bir qismini yazıram, budur:*

*Elmin izzəti payidar olur,*
*Cəhlin nikbəti canşikar olur,*
*Hər kəs oxur, bəxtiyar olur,*
*Millət elm ilə bərqərar olur.*
*Oxuyun əzizlər, oxumaq zəmanıdır!*
*Oxumaq hər adəmin ədəbi nişanıdır!..."*
*("Təzə həyat", 1907, 31 avqust, №109).*

*Hər iki sənətkarın dərdi bir, arzusu bir idi. Onlar milli ədavəti, xalqda ayrılıq-seçkilik salan sünnilik-şiəlik təriqətini, qan davasını, "milləti zillətə salan" nifaqı, qəfləti, vaxtı keçmiş adət-ənənələri kəskin şəkildə tənqid edir, ümumi xalqı maariflənməyə, qabaqcıl madəni xalqlar sırasına çıxmağa, səadətə, qardaşlığa səsləyirdilər*" (4, s.188-189).

Sabirin "Zəman nə istəyir? Amma biz..." adlı məqaləsindəki fikirləri oxuduqda bir əsrdən çox zaman keçməsinə baxmayaraq, hazırda da elm, təhsil, mədəniyyət sahəsində işləyənlərin Sabir, Vəzirov kimi əziyyət çəkmək istəmədiklərini bilirik və ziyalıların fəaliyyəti Sabirin ifadə etdiyi kimi indi də qənaətbəxş deyil: *"...Ey millətimizin ziyalı cəvanları, bilsəniz ki, siz dünyalar qədər olan bir vəzifə altında yaşayırsınız! Budur, vətəni-əzizimizin gül, rəyahin bitirən torpaqları qardaşlarımızın məsum qanları ilə, elmsiz, tərbiyəsiz cəvanlarımızın vəhşikaranə, zalimanə hərəkətlərindən ağüştə "olduğun görürsünüz! Bu hərəkətlər elmsizlikdən, cəhalətdən naşi" deyilmidir? Əfradi-milləti-islam cəmiən rifahi-halları üçün, istiqbalda səadətləri üçün siz alicənablara göz tikməyiblərmi? Hərgah siz bu şanlı vəzifənizi layiqincə yerinə yetirsəniz, yəqin ki, yəqin ediniz ki, zənciri-əsarətdə, qeydi-cəhalətdə boğulub qalmış millətdaşlarınızı qərq olduqları vərteyi-həlakətdən sahili-nicata çıxarda bilərsiniz. Məktəb açdırın, məktəblər açdırın, ta ki, nəticəsində o biz deyən oxumuş, böyük oxumuş, ana dilində əqaidi-diniyyəsindən xəbərdar olan cəvanlar sahəarayi"-meydani-tərəqqi olsunlar.*

*Bir də təqazayi-zəmanı mülahizə edib də iş görməli! Bilirmisiniz zəman nə istəyir? Amma biz..." (8, s.311).*

**Nəticə**

*Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 7 may 2019-cu il tarixli, 211 nömrəli Qərarına əsaən, Azərbaycan Respublikasında əsərləri dövlət varidatı elan edilən 35 müəllifin arasında Nəcəf bəy Vəzirovun və Mirzə Ələkbər Sabirin adının olması təsadüf deyil. İstedadları, vətənpərvərliyi, ictimai və ədəbi fəaliyyətləri ilə hər iki ədib Azərbaycan ədəbiyyatının, xalqının görkəmli şəxsiyyətləri olmuşlar. Onların əsərlərində irəli sürdükləri ideyaları müasir dövrdəki problemləri həll etmək, çıxış yolu tapmaq üçün əhəmiyyətlidir. Həm N.Vəzirov, həm də M.Ə,Sabir ziyalı mövqeyindən çıxış edərək bütün fəaliyyətlərini elmsizliklə, cəhalətlə mübarizəyə həsr etmiş, cəhalətdə boğulmuş həmvətənlərini maarifləndirmək üçün xeyli mütərəqqi işlər görmüşdülər. Hazırda da Sabir və Nəcəf bəy kimi xalqı müxtəlif istiqamətlərdən maarifləndirməyi özlərinin müqəddəs vəzifəsi bilən ziyalılara cəmiyyətimizin ehtiyacı var.*

**Ədəbiyyat siyahısı:**


1. Abbas Zamanov, Əməl dostları, "Yazıçı", Bakı-1979. 368 səh.
2. "Həyat" qəzeti, 1906-cı il 6 avqust, №173
3. Qulam Məmmədli "Azərbaycan teatrının salnaməsi (1850-1920)" (Azərbaycan dövlət nəşriyyatı, Bakı-1975, 584 səh.
4. Məmmədov K.D., Nəcəf bəy Vəzirov.-B.:Azərnəşr, 1995, 203 səh.
5. Məmmədzadə Səbinə, Məmmədova Tamella, Ağlar güləyən (Mirzə Ələkbər Sabirin anadan olmasının 150 illiyi münasibətilə), Metodik vasitə. Mingəçevir 2012, 20 səh.
6. Mir Möhsün Nəvvab. "1905-1906-cı illərdə erməni-müsəlman davası".-Bakı, "Azərbaycan" nəşriyyatı, 1993.-130 s.
7. Mirzə Ələkbər Sabir. Hophopnamə. İki cilddə. II cild. Bakı, "ŞərqQərb", 2004, 384 səh.
8. Mirzə Ələkbər Sabir (Həyatı və əsərləri) "Qismət" nəşriyyat-poliqrafiya-2003
9. Nəcəf bəy Vəzirov, "Müsibəti-Fəxrəddin". Azərnəşr, Bakı-1929,
10. Zamanov A.F., Sabir bu gün. B:, Gənclik, 1985. 352 səh.
11. www.pressklub.com 25 avqust 2022

**Aziza Alakbarova**

**Najaf bey Vazirov in Sabir's work**

The works of Najaf bey Vazirov and Mirza Alakbar Sabir are relevant not only in their times, but also now as our society, which is still behind regarding the educational requirements and science of our modern world, is still weak compared to the leading countries in many fields, as it was in the 19th century. Abbas Zamanov writes in his article "The People's Dignity": "...in the first years of its existence, the Azerbaijani theater was like a baby born from the dramaturgy of the genius Mirza Fatali. Hasan bey Zardabi, Najaf bey Vazirov, Asgaraga Gorani and other theater lovers stood at the cradle of this baby, raised it with a mother's caress, taught it to crawl, then stand up and walk, blessed and released it to an independent life.

...Azerbaijani theater has become a powerful tribune of the struggle against ignorance and superstition, which is holding the nation back, against medieval relations, and against the old society, which hinders the material, cultural and spiritual development of the people" (1, p. 276-277).

Seyid Hussain wrote: "Take whichever verse of Sabir you like, it is a historical document for you. It is such a document that the mood, social life and thinking of our people in the years 1906-1911 will be completely reflected in it. Sabir knew that poetry and artistry consisted of working for the renaissance of the people and awakening them from the sleep of ignorance" (8, p. 5).

In the year 2023, in which we live, most of our citizens suffer from problems such as the lack of freedom of thought, not knowing their rights and duties, and not telling the truth they know for fear of losing their jobs. The role of education, science, press and theater is great in overcoming these problems. Unfortunately, the theater that Vazirov and Malikov raised and left for an independent life or the satires written by Sabir cannot find their followers and do the services that Sabir and Vazirov did for cultural and spiritual development.

***Keywords:*** *Najaf bey, Sabir, article, theater, period, Shusha, uprising, Azerbaijani, Armenian, Mir Mohsun Navvab, work*

Filologiya elmləri doktoru, dosent
**Paşa Kərimov** tərəfindən çapa tövsiyə olunmuşdur.